*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Poetika.izm, 2023, № 2* *ISSN: 2663-2926*
*Səhifə: 18-24* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-2926.2023.2.18*

# Məmməd Araz yaradıcılığı epik şeir kontekstində

**Tahirə Məmməd**
Filologiya elmləri doktoru, professor
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: tahire.mammed@yahoo.com

**Annotasiya.** Məmməd Araz yaradıcılığının əsas özünəməxsusluğu onun poeziyasında lirik-epik cəhətlərin çarpazlaşmış şəkildə təzahüründədir. Şairin lirik-epik planda yazılmış poemaları, balladaları ilə bərabər, ayrıca epik şeirləri də var. Həmin şeirlərdə dastan ruhu, motivləri aparıcı yer tutmaqla bərabər, eyni zamanda dərin lirik hissiyyat, coşqu, marşvari çağırış hakimdir. Çağırış, hissiyyat subyekti önə çıxartsa da, müraciət etdiyi topluluğu, cəmiyyəti, xalqı, vətəni, yurdu özünə qoşa bilməsi ilə "mən" sanki dastan qəhrəmanına çevrilir, magik, mifik güc nümayiş etdirir və çoxluğa birləşir. Şeirlərində dastan ruhu, epik yaddaş, eyni zamanda epik şeirin ayrı-ayrı formaları kimi qəbul edilən həmasi şeir, varsağı, marş sintezləşmiş haldadır; yaradıcılığında bu şeir şəkillərini ayırıb birinin dominantlığını müəyyənləşdirmək çətindir. Məqalədə epik şeir anlayışına aydınlıq gətirilir, keçdiyi inkişaf yoluna nəzər salınır, Məmməd Arazın epik şeirləri ənənə və novatorluq, poetik yaddaş kontekstində araşdırılır və onların daşıdığı özünəməxsusluqlar müəyyənləşdirilir.
**Açar sözlər:** epik şeir, çağırış, dastan, mif, Məmməd Araz

**Məqalə tarixçəsi:** göndərilib – 17.11.2023; qəbul edilib – 29.11.2023

# Creative work of Mammad Araz in the context of an epic poem

**Tahira Mammad**
Doctor of Philological sciences, professor
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: tahire.mammed@yahoo.com

**Abstract.** Mammad Araz's creativity is characterized by the juxtaposition of lyrical and epic elements in his poetry. In addition to his lyrical-epic poetry and ballads, the poet has also composed poems that may be considered epic. In those poems, the epic spirit and motifs occupy a leading place, but at the same time, deep lyrical feeling, enthusiasm, and march-like connotation dominate. Although the calls and emotions bring the subject to the fore, by being able to connect the group, society, people, homeland, country himself, "I" becomes the hero of the epic, shows magical, mythical power and joins the multitude. In his poems, the spirit of the epic, the epic memory, and at the same time the epic poem, varsagi, the march, which are considered as separate forms of the epic poem, are synthesized; it is difficult to separate these poetic forms in his work and determine the dominance of one.

The essay elucidates the concept of epic poetry, explores its developmental direction, analyzes Mammad Araz's epic poems within the framework of tradition and innovation, and poetic memory, and delineates their distinctive characteristics.
**Keywords:** epic poem, call, epic, myth, Mammad Araz

**Article history:** received – 17.11.2023; accepted − 29.11.2023

## Giriş / *Introduction*

Təqlidin, mimesisin mahiyyətinə görə ayrılan ədəbi növlər və onların öz ətrafında birləşdirdiyi janrlar identifik xüsusiyyətləri ilə fərqlənsələr də, aralarında keçilməz sədlər mövcud deyil. Bəzən bu keçilməzlik sintezləşmə səviyyəsində də meydana çıxır; epik şeir kimi.

*Epik şeir: tarixi inkişafı və təsnifatı*

Epik şeirin yaranma tarixi dastanlar dövründən başlanmışdır. O, özündə lirik və epik xüsusiyyətləri bu və ya digər səviyyədə sintezləşdirir. "Epik" sözü, yunancada dastan anlamındakı eposdan gəlməkdədir. Yazıdan öncəki dönəmlərdə ulusların həyatında dərin izlər buraxan tarixi olayları dilə gətirən dastanlar epik şeir sayılır. Epik şeirlərdə igidlik, qəhrəmanlıq, savaş mövzuları işlənir. Hər epos (dastan), ya da epik şeirlərdə tarixi bir gerçəklik vardır. Epik şeir bu gerçəkdən qaynaqlanır. Epik şeirlərin çoxu, oxucunu coşdurduğu üçün lirik özəlliklər də daşıyır" [11].

İstinaddan göründüyü kimi, epik şeir və epos sinonim və ya ortaq xüsusiyyətli nümunə kimi izah olunur. Epik şeirin ilkin nümunələrindən bəhs edərkən də bu ifadə sinonim mənada anlaşılır və ilk epik şeir nümunəsi kimi "Bilqamıs"dan, qədim yunan dastanlarından, onların sosial, ritorik funksiyasından bəhs edilir [4].

## Əsas hissə / *Main part*

Epik şeir və ya dastan yaranma tarixinə, xüsusiyyətlərinə, mədəniyyətlərin inkişafına, inancların dəyişiminə görə iki yerə ayrılır: qədim, ənənəvi və modern və ya təbii/süni yolla yaranan. "Toplumun həyatında iz buraxan mövzuların dastanvarı bir dillə işləndiyi şeirlərə epik şeir deyilir. Böyük savaşlar, köçlər və təbii fəlakətlər kimi olayları mövzu kimi götürən epik şeirlər qəhramanlıq şeirləridir. Yurd sevgisi, qəhrəmanlıq və mərdlik kimi mövzuların ön plana çıxarıldığı bu şeirlər oxucuda igidlik duyğusu, coşqu və savaşma istəyi oyandırmaqdadır. Meydana gəlmə tarixlərinə görə epik şeir iki yerə ayrılır: təbii epik və süni epik (ilk və ya ikinci, qədim və modern – T.M.). Təbii epik şeir əski tarixlərdə formalaşmış və xalqın həyatında dərin izlər buraxan mövzuları işləməkdədir. Yaxın çağlarda meydana gələn süni epik şeir isə sosial ve tarixi hadisələri anlatmaqdadır" [5].

Epik şeir tarixlə sıx bağlı olmaqla bərabər, eyni zamanda cəmiyyətin mədəni dəyərlərinin, epik ənənənin daşıyıcısıdır. Bu cəhət də epik şeirin, daha doğrusu ədəbiyyatın ilk nümunələrindən olan arxaik dastanlardan başlanğıc götürür və ənənəvi dastanlarda davam etdirilir. "Ənənəvi dastanlar zamanla icma daxilində tərtib olunduğundan, onlar icmanın hekayə tarixində mərkəzi yeri olan personajlardan istifadə edərək, öz icmalarının mədəni dəyərlərini nümayiş etdirirlər" [2, s.177]. Qəhrəmanlıq, xalqa çağırış və mədəni dəyərlər dastanlardan kompakt halda müasir dövrün epik şeirlərinə ötürülür.

Göründüyü kimi, qədim dövr ədəbiyyatından bəhs edərkən epik şeir, poema, epos bir-birlərini əvəz edən anlayışlar kimi işlədilir. Bu sözün etimoloji mənşəyində eposun dayanması, poem sözünün şeir kimi tərcümə olunması və yazılı dastanlara, məsnəvilərə poema da deyilməsindən qaynaqlanır. Bu mənada, epik şeir bir tərəfdən epik növün mənzum şəkildə yazılan janrlarını, digər tərəfdənsə dastan ruhlu, epik güclü şeirləri bildirir. Bu kontekstdə "Bilqamıs", "İliada", "Odissey"

və s. dastan, həm də epik şeir adlandırılır. Təsadüfi deyil ki, bizim ədəbiyyatşünaslıqda Nizaminin "Xəmsə"sinə daxil olan əsərlərin məsnəvi ilə bərabər, epik şeir adlandırılması ilə də rastlaşırıq [10].

Bütün bunlardan sonra belə qənaətə gələ bilərik ki, qədim epik poeziya, dastan bir ana qaynaq kimi özündə dastanın, poemanın ilkin xüsusiyyətlərini ehtiva edir və sonrakı mərhələlərdə bir çox janrların yaranmasına əsas verir, o cümlədən də epik şeirin. Əgər şeiri poemadan, mənzum hekayədən ayırırıqsa, o zaman epik şeir də hazırkı mərhələdə əvvəlki məzmunu əhatə etmir. Təsadüfi deyil ki, şeir mövzu, məzmun xüsusiyyətlərinə görə təsnif edilərkən epik şeir onun növlərindən biri kimi müəyyənləşdirilir:

"1. Lirik şeir
2. Pastoral şeir
3. Epik şeir
4. Didaktik şeir
5. Satirik şeir
6. Dramatik şeir" [11].

Fərqli baxışları və bədii faktları nəzərə alaraq belə qənaətə gələ bilərik ki, bəlli bir inkişaf tarixi yaşayan epik şeir hazırkı vaxtda özündə epik məzmunu və lirik tərənnümü, hissiyyatı əks etdirən lirik-epik yaradıcılıq nümunələridir. Tədqiqatlarda, lirika və epikliyin, subyektiv yaşantı və obyektiv gerçəkliyin təqlid vəhdətinə görə lirik-epik yaradıcılıq növlərarası forma kimi dəyərləndirilir [1, s.79].

"Liroepik poeziya – lirik prinsipin eposla birləşdiyi poetik əsərlərdir. Lirik-epik şeirlərə çoxlu balladalar, qəsidələr, marşlar və s. daxildir. Rus ədəbiyyatında lirik-epik poema janrı geniş yayılmışdır" [7]. Faktlar göstərir ki, lirik-epik poemalarla bərabər, ayrıca epik şeirdən də bəhs edilə bilər.

Klassik poeziyamızda, həm də folklorda epik şeirin özünün də müstəqil formaları kimi dəyərləndirilə biləcək nümunələri var; varsağı, həmasi şeir, qoçaqlama çağırış ruhuna, cəmiyyətə səslənişə, qəhrəmanlıq motivlərinin yer almasına görə lirik-epik planda yazılır və bu mənada epik şeir kimi dəyərləndirilə bilər. Epik şeir nəyisə nəqletmə, təhkiyə strukturuna görə deyil, həm də özündə epik ənənəni, motivləri əks etdirməsinə görə də müəyyənləşdirilə bilər. Bu mənada, aşağıdakı izah maraqlıdır. "... epik şeir - hal - xasiyyət, xarakteri bədii xülya baxımından düzəltməyə yönlü, xalqın qəhrəmanlıq və əzəmət dolu xüsusiyyətlərini əks etdirən nümunə kimi də başa düşülməlidir" [12].

*Məmməd Araz yaradıcılığında epik şeir*

Məmməd Araz yaradıcılığı hissiyyat və düşüncənin lirik-epik planda sintezləşməsi ilə diqqəti cəlb edir. Onun lirikasında epiklik, epik əsərlərində liriklik kənarda qalmır, qarşılıqlı şəkildə bir-birini zənginləşdirir. Ballada, süjetli mənzumələr, lirik poemalar müəllifi kimi lirik-epik əsərlər yazan şair qəhrəmanlıq, dastan, çağırış ruhunu ifadə edən epik şeirləri ilə daha çox tanınmaqdadır.

Məmməd Araz yaradıcılığı Azərbaycan xalqının mədəni-genetik kodlarından, coğrafiyasının yaddaş və enerji qaynağından süzülür. Şair özü bu qaynağın yetişdirdiyi mifik qəhrəman kimidir. Onun yaradıcılığını bütöv bir mətn kimi götürsək, orada sanki iki süjet xətti var: biri lirik, aşiqanə duyğular, doğmalara səmimi hisslər, digəri isə xalq, vətən sevgisi, milli mübarizə. Bu mənada şairin yaradıcılığı bizə qəhrəmanlıq dastanlarını xatırladır – həm məhəbbət, həm də qəhrəmanlıq, mübarizlik xətti ilə; bu xətlər bir çox məqamlarda qovuşuq haldadır. Məmməd Arazın şeirlərində epik güc və dərin hissiyyat bir aradadır. Orada sanki at çapır, bulaq axır, dağlar yerindən oynayır, lirik qəhrəman daşa, qayaya çevrilərək epik məzmun qazanır, tarix monumental səhifələrlə göz önündə canlanır... Məmməd Arazın lirik şeirlərinə epiklik, epik şeirlərinə isə liriklik güc qatır. Şeirlərinin cazibəsi, orijinallığı da elə bundadır... Cəsarətlə demək olar ki, kimsənin yaradıcılığında lirik duyğu və epik güc, epik yaddaş, ənənə bu qədər qovuşuq halda üzə çıxmır. Onun epik şeiri dastançılıq ənənələri ilə sıx bağlıdır, eyni zamanda lirik yaşantı ilə doludur. "Yurd sevgisi və qəhrəmanlıq mövzularını əsas götürən epik şeirlər lirik özünəməxsusluq daşıyır" [5].

Məmməd Araz yaradıcılığından etdiyimiz istinadlar göstərir ki, süjetlilik epikliyin başlıca prinsipi deyil və o, süjetsiz də mümkündür. Orada vətənə, xalqa, millətə sevgi, qəhrəmanlıq çağırışları, subyekt və obyektin vəhdəti əsasdır. Bu mənada epik şeir dastanın ədəbi təsir funksiyasının şeirlə icra olunmasıdır. Məmməd Arazın epik şeirlərinə həzin yox, həyəcanlı, hərəkətli, coşqulu lirika xasdır. Bu, bir qəhrəmanlıq şeiridir və özündə dastan ruhunu qoruyub saxlayır. Qəhrəmanlıq duyğularını ön plana çıxaran Məmməd Araz tarixin təhkiyəsinə yox, coşqu oyadacaq motivlərinə, elementlərinə üstünlük verir.

Məmməd Arazın şeirlərində dağ, daş, qaya, çay, bulaq, qum insan kimidir, elə insan da dağ, daş, qaya, çay, bulaq, qum kimidir. Bu oxşarlıq paralel müstəvidə yox, iç-içədir, bir-birinə hopub. Həmin qarşılıqlı prosesdən meydana gəlir Məmməd Araz şeirinin epik gücü və xarakteri. Onun lirik qəhrəmanı qayanın, daşın qardaşıdır; vətəndaş və Vətən daşı deyimi kimi. Məmməd Araz Azərbaycan deyəndə vətəndaşı "ayağa dur"duran, vətən dara düşəndə Azərbaycana "ayağa dur, Azərbaycan!" nidası ilə çağrış edən söz sərkərdəsidir. Bir insan, vətəndaş kimi öz borcunu icra edə bilməyənləri cəzalandırmaq haqda çağırış edəndə ön sırada hədəf kimi özünü göstərir. "Yoxsa sözümün kəsəri, kəsin məni kəsim-kəsim!" – deyən şairin sözü qılınc kimi döyüşür, nəsilləri ayağa qaldırır. 1967-ci ildə yazdığı "Məndən ötdü, qardaşıma dəydi" şeirində olduğu kimi:

*Ey daşlaşan, torpaqlaşan,*
*ulu babam!*
*Bu günümdən dünənimə uzaqlaşan*
*ulu babam!*
*Küləkləşən, dumanlaşan ruhumla sən*
*Ayağa dur, səninləyəm!* [8, s.84]

Məmməd Arazın "öz", "mən" anlayışında xalqa, dünyaya qaynayıb-qarışmış epik qəhrəman var. "Özünə bax, deyirsən" şeirində olduğu kimi:

*Ömür elə çevrədi: irəli yox, geri yox.*
*... Dövrəmdə vaxt olur ki, neçə dövran rəqs edir ...*
*Bu yoldur - sınaq yolu,*
*Dağ yolu - qınaq yolu.*
*Aylarca keçmək olmur bu bircə varaq yolu.* [9, s.19-20]

"Araz dili" şeirində bir başqa şəkildə epikləşir, dastanlaşır, nağıllaşır şair-qəhrəman:

*Yenə dolub daş-kəsəklə xurcunun.*
*Bir daş atıb, gəl oyatma min daşı,*
*Ünvanına alqış yetə bir qaşıq*
*Araz daşı ələməkdə mahirdi,*
*Ələyib qum eləməkdə mahirdi.*
*Mən neçə yol danışmışam Arazla...*
*Araz dili: ürək dili, göz dili,*
*Torpaq dili, hava dili, göy dili.*
*Mən neçə yol danışmışam Arazla...* [9, s.28]

Məkanı – çayı, kiçik bir talanı, daşı çox zaman epik planda canlandırıb, nəhəngləşdirib təqdim edən şair, bütün dünyanı da görünən müstəvidə üz-üzə dayanıla bilən epik məkana çevirir: Məsələn:

*İtirib özündə özünü dünya,*
*Toyların, yasların özülü dünya...*
*Əlim ətəyindən üzülü dünya...*
*Mən belə dünyanın nəyindən küsüm?*

*Ömrünə vay salar, vaydan utanmaz,*
*Saç yolub-hay salar,*
*Haydan utanmaz,*
*Günəşdən utanmaz, Aydan utanmaz,*
*Mən belə dünyanın nəyindən küsüm?* [9, s.92]

Bütün çağırışlarında həm qəhrəman, həm də vətən lirik-epik planda təqdim olunur:

*Gücünə qəzəbini,*
*Zəhmini də qata bil,*
*Düşmənin marığında Pələng kimi yata bil.*
*Bu dağları baba bil,*
*Bu daşları ata bil!*
*Qılınc qap, Vətən oğlu,*
*Bizi Vətən çağırır!*
*Bizi Vətən çağırır!!!* [9, s.129]

Şairin dillər əzbəri olan “Ayağa dur, Azərbaycan!” şeiri kimsənin çata bilmədiyi söz dağı, söz zirvəsi və epik qüdrət, lirik coşqudur, bu lirika epik məzmunu ilə güclüdür:

*Nə yatmısan, qoca vulkan, səninləyəm!*
*Ayağa dur, Azərbaycan, səninləyəm!*
*Səndən qeyri*
*biz hər şeyi belə billik!*
*Səndən qeyri*
*biz hamımız ölə billik! ...* [9, s.132]

Misralarda həm bütöv Azərbaycan, həm də hamımız, hər bir azərbaycanlı səfərbərliyə çağırılır. Sözün bu şeirdəki qədər əsgərləşməsini, sərkərdələşməsini, döyüşən qoşuna çevrilməsini kimsə yarada bilməyib. Bu, tarixin ən dərin qatlarından, Vətənin çınqılından, yağışından, mamırından, qayalarından, babadan, atadan, Nizamidən, Nəsimidən, Füzulidən, etnik mədəni kodlardan güc alıb vulkan kimi püskürən Məmməd Araz sözünün yenilməz qüdrəti və epik gücüdür, eyni zamanda lirik dərinliyi, həssaslığıdır. Bu mənada onun poeziyası “düşüncə lirikası” kimi səciyyələndirilir. “(Məmməd Arazın – T.M.) “Ürəyimsiz kəlmə yazan deyiləm” andı tərənnüm poeziyasından düşüncə lirikasına qəti keçidinin ifadəsidir” [6].

Məmməd Araz şeirində epiklik bir də özünü onda göstərir ki, mətnin bir misrası çox zaman aforizm kimi səslənsə də, o əsas gücünü bütöv mətndə tapır; dastan qəhrəmanının dastandakı qüdrəti kimi. Doğrudur, misralar mükəmməldir, dərin mənalıdır. Sanki bir qoşunun tək-tək güclü əsgərləridir. Şeir bütövlükdə isə qüdrətli ordu kimidir. Şairin epik şeirləri milli-mənəvi ruhumuzun döyüşən əskərləridir; hər zaman ayıq-sayıq və döyüşə hazırdır.

**Nəticə / *Conclusion***

Epik şeir anlayışı tarixi poetika istiqamətində müəyyən mərhələlərdən keçmiş və ilkin məzmununda dastanla birlikdə çıxış etsə də, şeir mənasında özü müstəqilləşmişdir. Onun epik və ya lirik növdən daha çox, növlərarası forma kimi dəyərləndirilməsi daha doğrudur.
Məmməd Araz epik şeirin ən qüdrətli təmsilçilərindən biridir. Onun epik şeirləri lakonik şəkildə dastan funksiyasını yerinə yetirən lirik-epik yaradıcılıq nümunəsi kimi dəyərləndirilə bilər.

**Ədəbiyyat / *References***


1. Белокурова, С.П. Словарь литературоведческих терминов. – 2-е, исправл. – Санкт-Петербург: Паритет, – 2012.
2. Coyle, M. Encyclopedia of literature and criticism. – Detroit: Gale Research, – 1991.
3. Daniel, B. Epic Poems – Definition, Characteristics, and ExamplesTutors https://tutors.com › lesson › e... – 26 yanvar 2023.
4. Epic Poem – Writing Across Contexts College of Charleston https://blogs.cofc.edu › ... › – 28 aprel 2022.
5. Epik şiir nedir, özellikleri nelerdir? Epik şiir tanımı, örnekleri ve şairleri https://www.sabah.com.tr/egitim/epik-siir-nedir-epik-siir-tanimi-ornekleri-ve-ozellikleri-23.2.2021
6. Həbibbəyli, İ. Milli şerin ağsaqqalı - Məmməd Araz - memmedaraz.az memmedaraz.az https://www.memmedaraz.az › ...
7. Квятковский, А.П. Поэтический словарь. Wysotsky https://wysotsky.com › .
8. Məmməd Araz. Seçilmiş əsərləri [2 cilddə]. – Bakı: Lider, – c.1. – 2004.
9. Məmməd Araz. Seçilmiş əsərləri [2 cilddə]. – Bakı: Lider, – c.2. – 2004.
10. Mirzəyev, A. Azərbaycan epik şeirində qəzəl: Nizamidən Füzuliyə doğru. Edebiyyatqazeti.az https://edebiyyatqazeti.az › 7... – 13 0ktyabr 2021
11. Şiir Bilgisi: Şiir Türleri, Özellikleri, Örnekleri - Türk Dili ve ...turkedebiyati.org https://www.turkedebiyati.org › .
12. Tağısoy, N. Güney Azərbaycan epik şeiri: kompleks təhlil adalet.az https://www.adalet.az › ...


## Творчество Мамеда Араза в контексте эпического стиха


**Тахира Маммад**
Доктор филологических наук, профессор
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: tahire.mammed@yahoo.com



**Резюме.** Главной особенностью творчества Мамеда Араза является его яркая лирико-эпической форма. Наряду с написанными в лирико-эпической форме поэмами, балладами, у поэта есть стихотворения, которые отдельно оцениваются как эпические. И помимо того, что в этих стихах важное место занимают дух и мотивы дастана, в них главенствует также наличие глубоких лирических эмоций, бурного проявления, призыва подобно маршу. Даже при изображении в объекте на первом плане бурного проявления эмоций, призыва, при обращении к обществу, народу, родине, любви к отчизне в целом, его магическая, мифи-

ческая духовность превращается как бы в главного героя дастана, выразителя единой силы. Эпический дух, эпическая память его поэзии приняты как различные формы эпического стиха синтезированные в марше; в то же время трудно отделить эти формы его поэзии друг от друга и установить доминирующую позицию одного из них.
В статье поясняется понятие эпического стиха, рассмотрен пройденный путь его развития, проведён анализ эпических стихов Мамеда Араза в контексте поэтической памяти, определяется его новаторство в традициях и их своеобразие.
**Ключевые слова:** эпический стих, призыв, дастан, миф, Мамед Араз